Azərbaycan Respublikasının
Maliyyə Nazirliyi

# Azərbaycan Respublikasının 2024-cü ilin dövlət və icmal büdcələrinin yarımillik icrasına dair arayış və ilin sonuna gözləntilər

BAKI - 2024

# Giriş

2024-cü ilin birinci yarımilliyində müsbət iqtisadi artım dinamikası, maliyyə intizamının və fiskal inzibatçılığın gücləndirilməsi, həmçinin beynəlxalq enerji bazarlarında formalaşan əlverişli qiymət konyukturu büdcə göstəricilərinə müsbət təsir göstərmiş, dövlət büdcəsinin gəlirləri proqnozu 11,2 faiz, qeyri-neft/qaz gəlirləri isə 18,7 faiz üstələmişdir. Eyni zamanda, dövlət büdcəsinin xərcləri yarımillik proqnoza qarşı 16,7 faiz çox icra olunmuş, dövlət büdcəsinin vəsaiti hesabına əsas dövlət vəzifələrinin və büdcə öhdəliklərinin yerinə yetirilməsi üçün maliyyələşmələr xərc sifarişləri əsasında tam və vaxtında təmin edilmişdir.

İlin ötən dövrü üzrə müşahidə olunan makro-fiskal tendensiya, həmçinin cari ilin aprel ayında Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin makroiqtisadi proqnozunun baza ssenarisinə edilmiş dəyişikliklər dövlət büdcəsinə əlavə daxilolmaların proqnozlaşdırılmasına əsas vermişdir. Bu vəsaitlər ölkə rəhbərinin müəyyən etidiyi prioritet istiqamətlər (ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi, Böyük Qayıdışa dair Dövlət Proqramının icrası, beynəlxalq əhəmiyyətli tədbirlərin təşkili və s.) üzrə zəruri olan bir sıra əlavə tədbir və layihələrin maliyyələşdirilməsinə imkan yaratmaqla 2024-cü ilin dövlət büdcəsinə yenidən baxılmasını şərtləndirmişdir. 2024-cü ilin dövlət büdcəsində nəzərdə tutulan dəyişikliklər Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1179-VIQD Qanunu ilə təsdiqlənmişdir. Büdcəyə yenidən baxılması zamanı yenilənmiş büdcə parametrləri ilin sonuna olan gözləntilər kimi qəbul edilmişdir.

Beləliklə, hazırki sənəd 2024-cü ilin ilk altı ayında makoiqtisadi mənzərəni, dövlət və icmal büdcələrinin icrasına dair məlumatları, makroiqtisadi və fiskal göstəricilər üzrə ilin sonuna gözləntiləri, eləcə də neft qiymətinin dəyişməsinin büdcə göstəricilərinə və valyuta ehtiyatlarına mümkün təsirlərinin təhlilini ehtiva edir.

## 1. 2024-cü ilin birinci yarısında makroiqtisadi mühit

Cari ilin ilk altı ayında ölkə iqtisadiyyatında yaradılmış əlavə dəyər 59520,4 milyon manat olmuş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 4,3 faiz artım qeydə alınmışdır.

Hesabat dövründə qeyri-neft/qaz sektorunda ÜDM-in həcmi 38798,0 milyon manata bərabər olmuş, ötən ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 6,9 faiz artmışdır. İqtisadiyyatın neft-qaz sektorunda isə real artım 0,6 faiz olmuşdur. İlin ilk yarısında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əmtəəlik qaz hasilatı 5,3 faiz artsa da, əmtəəlik neft hasilatında 4,9 faizlik azalma qeydə alınmışdır.







Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ilin yanvar-iyun aylarında ÜDM-in strukturunda ən böyük xüsusi çəkiyə (38,5 faiz) malik sənayedə real ifadədə 0,9 faiz artım olmaqla 22,9 milyard manatlıq, məhsula və idxala xalis vergilər üzrə (xüsusi çəkisi 9,6 faiz) 8,3 faiz real artım olmaqla 5,7 milyard manatlıq, ticarət və nəqliyyat vasitələrinin təmiri sektorunda (xüsusi çəkisi 9,7 faiz) 3,3 faiz real artım olmaqla 5,7 milyard manatlıq, nəqliyyat və anbar təsərrüfatı sektorunda (xüsusi çəkisi 7,0 faiz) 15,4 faiz artım olmaqla 4,2 milyard manatlıq, kənd təsərrüfatında (xüsusi çəkisi 5,8 faiz) 0,2 faiz real artım olmaqla 3,5 milyard manatlıq, tikinti sektorunda (xüsusi çəkisi 5,8 faiz) 18,4 faiz real artım olmaqla 3,5 milyard manatlıq, turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda (xüsusi çəkisi 2,4 faiz) 10,3 faiz real artım olmaqla 1,4 milyard manatlıq, informasiya və rabitə sektorunda (xüsusi çəkisi 1,7 faiz) 12,2 faiz real artım olmaqla 1,0 milyard manatlıq və sosial və digər xidmətlər (xüsusi çəkisi 19,5 faiz) isə 3,5 faiz real artım olmaqla 11,6 milyard manatlıq əlavə dəyər istehsal edilmişdir.

2024-cü ilin yanvar-iyun aylarında inflyasiya tempi azalmaqda davam etmiş, orta illik inflyasiya 0,7 faiz səviyyəsində qərarlaşmışdır. Hesabat dövründə orta illik ərzaq qiymətlərində 0,6 faizlik deflyasiya qeydə alınmış, qeyri-ərzaq inflyasiyası 1,2 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə inflyasiya isə 2,4 faiz olmuşdur. İllik inflyasiya (2024-cü ilin iyun ayı 2023-cü ilin iyun ayına nisbətən) isə 1,1 faiz təşkil etmişdir.

**Qrafik 3. İlin birinci yarısında orta illik inflyasiyanın dinamikası və strukturu** *(faiz)*







Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2024-cü ilin yanvar-may aylarında xarici ticarət üzrə əməliyyatların həcmi 2023-cü ilin müvafiq dövrünə nisbətən real ifadədə 7,6 faiz azalaraq 18225,4 milyon ABŞ dolları həcmində olmuşdur ki, bunun da 10924,7 milyon ABŞ dolları ixrac əməliyyatlarının, 7300,7 milyon ABŞ dolları isə idxal əməliyyatlarının payına düşmüşdür. Nəticədə xarici ticarət hesabında 3624,0 milyon ABŞ dolları həcmində müsbət saldo yaranmışdır.

2024-cü ilin yanvar-iyun aylarında “Azeri Light” markalı xam neftin bir barelinin orta ixrac qiyməti 86,5 ABŞ dollarına bərabər olmuşdur ki, bu da 2024-cü ilin ilkin təsdiq edilmiş büdcə parametrlərinin hesablanması zamanı götürülmüş qiymətdən (60,0 ABŞ dolları) 44,2 faiz çoxdur.

**Qrafik 4. 2024-cü ilin birinci yarımilliyi üzrə "Azeri Light" markalı neftin bir barelinin ixrac qiyməti** *(ABŞ dolları)*




Profisitli tədiyə balansı ölkənin xarici valyuta ehtiyatlarının həcminin artımına zəmin yaratmışdır. 1 iyul 2024-cü il tarixinə ölkənin məcmu valyuta ehtiyatları 69,7 milyard ABŞ dolları təşkil etmişdir.

## 2. Dövlət və icmal büdcələrin 2024-cü ilin birinci yarısı üzrə icra göstəriciləri

2024-cü ilin birinci yarımilliyində dövlət büdcəsinin gəlirləri 18842,9 milyon manat, xərcləri 16052,1 milyon manat olmuşdur. Nəticədə yaranmış 2790,8 milyon manat məbləğində dövlət büdcəsinin artıqlığı (profisit) 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 1374,2 milyon manat və ya 2,0 dəfə çoxdur. Dövlət Neft Fondundan transfert nəzərə alınmadan dövlət büdcəsinin gəlirləri 118,0 faiz icra edilməklə 12452,4 milyon manat təşkil etmişdir.

**Qrafik 5. Dövlət büdcəsinin gəlir və xərcləri** *(milyon manat)*




**Dövlət büdcəsinin gəlirləri.** 2024-cü ilin birinci yarımilliyi üzrə dövlət büdcəsinin gəlirləri 16940,6 milyon manat proqnoza qarşı 18842,9 milyon manat təşkil etmişdir ki, bu da proqnozla müqayisədə 1902,3 milyon manat və ya 11,2 faiz çox, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə isə 21,7 faiz və ya 3363,0 milyon manat çoxdur.

2024-cü ilin yanvar-iyun aylarında dövlət büdcəsinin gəlirlərinin 8282,4 milyon manatı və ya 44,0 faizi vergi daxilolmalarının, 6390,5 milyon manatı və ya 33,9 faizi Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin, 3252,2 milyon manatı və ya 17,3 faizi gömrük rüsumları və idxala görə vergi daxilolmalarının, 250,0 milyon manatı və ya 1,3 faizi Mərkəzi Bankın reallaşdırılmış mənfəətinin sərbəst qalığından daxilolmaların, 241,5 milyon manatı və ya 1,3 faizi büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaların, 17,8 milyon manatı dövlət əmlakının icarəyə verilməsindən daxilolmaların, 408,5 milyon manatı və ya 2,2 faizi sair daxilolmaların payına düşür.

Bu dövrdə dövlət büdcəsinin gəlirləri üzrə təsdiq edilmiş proqnozdan vergi daxilolmaları 1053,8 milyon manat və ya 14,6 faiz, gömrük rüsumları və idxala görə vergi daxilolmaları 418,2 milyon manat və ya 14,8 faiz, Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert 0,5 milyon manat, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar 3,7 milyon manat və ya 26,2 faiz, digər daxilolmalar üzrə 328,3 milyon manat və ya 5,1 dəfə çox daxilolmalar təmin edilmişdir. Büdcə təşkilatlarının ödənişli xidmətlərindən 241,5 milyon manat vəsait daxil olmuşdur ki, bu da proqnozla müqayisədə 152,2 milyon manat və ya 38,7 faiz azdır.

**Qrafik 6. 2024-cü ilin yanvar-iyun aylarında dövlət büdcəsinin gəlirlərinin strukturu** *(faiz)*




2024-cü ilin ilk altı ayı üzrə dövlət büdcəsinin daxilolmalarının 53,3 faizini qeyri-neft/qaz sektoru üzrə daxilolmalar təşkil etməklə 10045,2 milyon manat olmuşdur ki, bu da proqnozla müqayisədə 1581,4 milyon manat və ya 18,7 faiz, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə isə 1214,1 milyon manat və ya 13,7 faiz çoxdur.

2024-cü ilin yanvar-iyun aylarında dövlət büdcəsinin gəlirlərində qeyri-neft/qaz sektoru üzrə daxilolmaların 58,5 faizini və ya 5875,1 milyon manatını vergi daxilolmaları, 32,4 faizini və ya 3252,2 milyon manatını gömrük rüsumları və idxala görə vergi daxilolmaları, 2,4 faizini və ya 241,5 milyon manatını büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar, 2,4 faizini və ya 250,0 milyon manatını Mərkəzi Bankın mənfəətindən daxilolmalar, 4,1 faizini və ya 408,6 milyon manatını digər gəlirlər, 0,2 faizini və ya 17,8 milyon manatını isə dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar təşkil edir.

Cari ilin ilk altı ayında dövlət büdcəsinin neft-qaz sektoru üzrə daxilolmaları 8797,7 milyon manat təşkil etmişdir ki, bu da proqnozla müqayisədə 320,9 milyon manat və ya 3,8 faiz, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2148,9 milyon manat və ya 32,3 faiz çoxdur.

2024-cü ilin yanvar-iyun aylarında dövlət büdcəsinin gəlirlərində neft-qaz sektoru üzrə daxilolmaların 27,4 faizini və ya 2407,2 milyon manatını vergi daxilolmaları, 72,6 faizini və ya 6390,5 milyon manatını isə Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert təşkil edir.

Neft-qaz sektoru üzrə vergi daxilolmalarının 48,5 faizini və 1167,0 milyon manatını Şahdəniz yatağı üzrə mənfəət vergisi, 34,6 faizini və ya 833,3 milyon manatını Dövlət Neft Şirkətinin ödədiyi müvafiq vergilər, 16,9 faizini və ya 406,9 milyon manatını isə ABƏŞ-in mənfəət vergisi təşkil edir.

**Qrafik 7. Dövlət büdcəsinin neft-qaz və qeyri-neft/qaz sektorları üzrə proqnoz və icra göstəriciləri** *(milyon manat)*




**Dövlət büdcəsinin xərcləri.** 2024-cü ilin ilk altı ayında dövlət büdcəsinin xərcləri 16052,1 milyon manat və ya təsdiq olunmuş proqnoza qarşı 2297,8 milyon manat və ya 16,7 faiz, ötən ilin eyni dövrü ilə müqayisədə isə 1988,8 milyon manat və ya 14,1 faiz çox icra edilmişdir. 2024-cü ilin yanvar-iyun aylarında dövlət büdcəsi xərclərinin 9833,8 milyon manatı və ya 61,3 faizi cari xərclərə, 4948,0 milyon manatı və ya 30,8 faizi əsaslı xərclərə, 1270,3 milyon manatı və ya 7,9 faizi dövlət borcuna xidmətlə bağlı xərclərə yönəldilmişdir.

**Qrafik 8. Dövlət büdcəsinin xərclərinin strukturu** *(faiz)* **və yarımillik icrasının ötən illə müqayisəsi** *(milyon manat)*







2024-cü ilin yanvar-iyun aylarında funksional təsnifata uyğun olaraq təhsil xərcləri 131,5 faiz icra edilməklə 2239,1 milyon manat, müdafiə və milli təhlükəsizlik xərcləri 126,9 faiz icra edilməklə 3047,6 milyon manat, sosial müdafiə və sosial təminat xərcləri 123,1 faiz icra

edilməklə 2091,5 milyon manat, kənd təsərrüfatı xərcləri 119,0 faiz icra edilməklə 491,0 milyon manat, səhiyyə xərcləri 114,7 faiz icra edilməklə 803,0 milyon manat, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq bölməsi üzrə xərcləri 105,0 faiz icra edilməklə 1161,0 milyon manat, ümumi dövlət xidmətləri xərcləri 134,6 faiz icra edilməklə 2428,4 milyon manat, iqtisadi fəaliyyət xərcləri 99,7 faiz icra edilməklə 2904,8 milyon manat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərcləri 92,9 faiz icra edilməklə 199,8 milyon manat,  ətraf mühitin mühafizəsi xərcləri 90,9 faiz icra edilməklə 128,2 milyon manat, əsas bölmələrə aid edilməyən xidmətlər bölməsi üzrə xərcləri 86,4 faiz icra edilməklə 450,0 milyon manat, mənzil və kommunal təsərrüfatı xərcləri 78,4 faiz icra edilməklə 107,7 milyon manat təşkil etmişdir.

**Qrafik 9. 2024-cü ilin birinci yarımilliyi üzrə dövlət büdcəsinin funksional təsnifatının bölmələri üzrə xərclərin proqnoz və icra göstəriciləri** *(milyon manat)*




2024-cü ilin ilk altı ayı ərzində sifarişçi təşkilatlar tərəfindən müvafiq layihələr üzrə təqdim edilmiş kassa sifariş sənədləri əsasında dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu üçün nəzərdə tutulan vəsaitin 42,9 faizi və ya 1065,0 milyon manatı ayrılmışdır ki, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 306,3 milyon manat və ya 40,4 faiz çoxdur.

2024-cü ilin ilk altı ayında dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası məqsədilə 1953,5 milyon manatı istifadə olunmuşdur.

2024-cü ilin yanvar-iyun aylarında dövlət borcuna xidmət edilməsi ilə bağlı xərclər 1270,3 milyon manat təşkil etmiş və ya dövlət büdcəsinin həmin dövr üzrə ümumi xərclərinin 7,9 faizinə bərabər olmuşdur. Sözügedən vəsaitin 1100,2 milyon manat həcmində hissəsi xarici dövlət

borcuna xidmət xərclərinin, o cümlədən 850,0 milyon manatı hökumət tərəfindən cəlb olunmuş xarici dövlət borcu üzrə əsas borc ödənişlərinin, 250,2 milyon manatı hökumət tərəfindən cəlb olunmuş xarici dövlət borcu üzrə faiz ödənişlərinin, 170,1 milyon manatı isə daxili dövlət borcuna xidmət xərclərinin (faiz ödənişləri) təmin edilməsinə yönəldilmişdir.

**Dövlət borcu.** 2024-cü il 01 iyul tarixi vəziyyətinə operativ məlumatlara əsasən Azərbaycan Respublikasının dövlət borcunun (xarici və daxili) ümumi məbləği 25696,7 milyon manat ekvivalentində və ya ÜDM-in 21,2 faizini təşkil etmişdir. Məcmu dövlət borcunun 35,5 faizi xarici dövlət borcunun, 64,5 faizi daxili dövlət borcunun payına düşür.

Beynəlxalq maliyyə-bank qurumları və digər kredit təşkilatları ilə imzalanmış müqavilələr əsasında istifadə olunmuş kreditlər və həyata keçirilmiş əsas borc ödənişləri nəzərə alınmaqla, 2024-cü il 01 iyul tarixinə operativ məlumatlara əsasən xarici dövlət borcu 5367,5 milyon ABŞ dolları (9124,8 milyon manat) ekvivalentində olmuş və ya ÜDM-in 7,5 faizini təşkil etmişdir. 2024-cü il 1 yanvar tarixinə olan göstərici ilə müqayisədə xarici dövlət borcunun məbləği mütləq ifadədə 1093,7 milyon ABŞ dolları (1859,2 milyon manat) və ya 16,9 faiz, ÜDM-ə nisbəti isə 1,4 faiz bəndi azalmışdır. Operativ məlumatlara əsasən xarici dövlət borcu üzrə imzalanmış müqavilələr çərçivəsində cari ilin ilk altı ayı ərzində 95,9 milyon manat istifadə edilmişdir.

2024-cü il 01 iyul tarixinə daxili dövlət borcu 16571,9 milyon manat və ya ÜDM-in 13,7 faizini təşkil etmişdir. Daxili dövlət borcunun məbləği 2024-cü ilin əvvəli ilə müqayisədə 705,5 milyon manat həcmində artmışdır. Daxili dövlət borcunun ÜDM-ə nisbəti 2024-cü ilin 01 yanvar tarixinə olan göstərici ilə müqayisədə 0,8 faiz bəndi artaraq 12,9 faizdən 13,7 faizə çatmışdır. Daxili dövlət borcunun 43,9 faizini dövlət qiymətli kağızları, 56,1 faizini isə 2023-cü ilin sonundan etibarən dövlət borcuna aid olan “Aqrarkredit” QSC BOKT-un dövlət zəmanətli borcu təşkil edir. Hesabat tarixinə dövlət qiymətli kağızlarının 19,5%-i 1 illik, 67,0%-i 2 və 3 illik, 13,5%-i isə 5 il və daha artıq müddətli dövlət qiymətli kağızlarının payına düşür.

**Dövlət büdcəsinin profisiti.** 2024-cü ilin altı ayı üzrə məlumata əsasən dövlət büdcəsində 2790,8 milyon manatlıq profisit yaranmışdır ki, bu da proqnozlaşdırılan göstərici ilə müqayisədə 395,5 milyon və ya 12,4 faiz az, ötən ilin müvafiq dövrü ilə müqayisədə isə 1374,2 milyon manat və ya 2,0 dəfə çoxdur.

**İcmal büdcə.** 2024-cü ilin ilk altı ayında icmal büdcənin gəlirləri 24352,5 milyon manat icra olunmuşdur ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2434,3 milyon manat və ya 9,1 faiz az, xərcləri isə 18198,9 milyon manat icra olunmuşdur ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2487,5 milyon manat və ya 15,8 faiz çoxdur. İcmal büdcədə 6153,6 milyon manat büdcə artıqlığı (profisit) yaranmışdır.

## 3. 2024-cü il üzrə yenilənmiş makroiqtisadi proqnozlar

2024-cü ildə qlobal artım üzrə Beynəlxalq Valyuta Fondu (BVF) tərəfindən cari ilin iyul ayında verilmiş proqnoz aprel ayına nəzərən dəyişməz saxlanılmış (3,2 faiz), Dünya Bankı (DB) isə cari ilin iyun ayında qlobal artım proqnozunu ilkin təqdim edilmiş proqnozla müqayisədə 0,2 faiz-bənd artıraraq 2,6 faiz səviyyəsində müəyyən etmişdir. 2024-cü ilin ilk yarısında geosiyasi və geoiqtisadi gərginliyin və ticari fraqmentasiyaların hökm sürməsi, qlobal əmtəə bazarlarında qiymət tərəddüdlərinin müşahidə olunması, disinflyasiya meyillərinin zəifləməsi qlobal iqtisadi gözləntilərlə bağlı qeyri-müəyyənliyə təsir edən amillər olmuşdur.

Beynəlxalq maliyyə institutları və agentliklərinin son proqnozlarına əsasən, xam neftin bir barelinin orta illik satış qiymətinin 75,0-85,0 ABŞ dolları civarında olacağı proqnozlaşdırılır (Cədvəl 1).

**Cədvəl 1. "Brent" markalı neftin 1 barelinin proqnozlaşdırılan orta illik qiyməti** *(ABŞ dolları)*

| Təşkilatlar | 2024 |
|---|---|
| **Beynəlxalq Valyuta Fondu (aprel, 2024)*** | 78,6 |
| **Dünya Bankı (iyun, 2024)** | 84,0 |
| **ABŞ-ın Enerji İnformasiya Administrasiyası (EIA) (iyun, 2024)** | 84,0 |

**UK Brent, West Texas Intermediate (WTI) və Dubai Fateh neft brendlərinin orta qiyməti*
*Mənbələr: BVF-in "Dünyanın İqtisadi İcmalı" hesabatı (aprel, 2024); Dünya Bankının "Qlobal İqtisadi Perspektivlər" hesabatı (iyun, 2024); EIA-nın və reytinq agentliklərinin rəsmi internet informasiya ehtiyatları (iyun, 2024)*

2024-cü ilin dövlət büdcəsinin layihəsi baxılan zamanı (2023-cü ilin oktyabr ayı) İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilmiş proqnozlara əsasən ÜDM 118,4 milyard manat, qeyri-neft/qaz ÜDM 84,2 milyard manat, real artım tempi isə müvafiq olaraq 2,4 və 4,6 faiz səviyyəsində götürülmüşdür. Lakin 2023-cü ildə istehsal edilmiş ÜDM-in ehtimal edildiyindən artıq olması, 2024-cü ilin ilk 6 ayında qeydə alınmış makro-fiskal nəticələr, həmçinin qlobal miqyasda iqtisadi artımla və enerji daşıyıcılarının qiymətləri ilə bağlı 2024-cü ilin sonuna gözləntilər cari il üzrə makroiqtisadi proqnozların dəqiqləşdirilərək yenilənməsini şərtləndirmişdir. Yenilənmiş proqnozlara əsasən, 2024-cü ildə ÜDM-in real artımı 3,8 faiz olmaqla nominal ifadədə 121,3 milyard manata (dövlət büdcəsinin layihəsinin tərtibi zamanı təqdim edilmiş proqnoza nəzərən 3,0 milyard manat çox), o cümlədən qeyri-neft ÜDM 84,7 milyard manata (əvvəlki proqnoza nəzərən 0,6 milyard manat çox) çatacağı gözlənilir.

2024-cü ilin dövlət büdcəsinin hesablamaları üçün 60,0 ABŞ dolları səviyyəsində qəbul edilmiş xam neftin bir barelinin orta illik ixrac qiyməti dövlət büdcəsinə yenidən baxılma ilə 75,0 ABŞ dolları səviyyəsinə artırılmışdır.

Cari ilin yanvar-iyun aylarında qeyri-neft/qaz sektorunda müşahidə edilən artım tempinin ilin növbəti aylarında da davam edəcəyi gözlənilir. Bu əsasla 2024-cü ildə qeyri-neft/qaz sektoru üzrə ÜDM-in real artım tempinə dair proqnoz 4,6 faizdən 5,5 faizə qaldırılmışdır.

Eyni zamanda, 2024-cü ildə orta illik inflyasiya üzrə ilkin proqnoz 5,3 faiz səviyyəsində nəzərdə tutulsa da, yenidən baxılma ilə inflyasiya proqnozu 2,7 faizə qədər azaldılmışdır.

**Qrafik 10. ÜDM** *(milyard manat)* **və orta illik inflyasiya** *(faiz)* **üzrə proqnozlar**



## 4. Dövlət və icmal büdcələrin 2024-cü ilin sonuna gözlənilən icra göstəriciləri

Azərbaycan Respublikasının 2024-cü ilin dövlət büdcəsinə yenidən baxılması ilə əlaqədar dəyişiklikləri nəzərdə tutan Qanun layihəsi Milli Məclisə təqdim olunmuş və qəbul edilərək 2024-cü ilin 1 iyul tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmışdır. Qanuna əsasən dövlət büdcəsinin gəlirləri 36,4 milyard manat, xərcləri isə 39,7 milyard manat məbləğində təsdiq olunmuşdur. Yenilənmiş büdcə parametrləri ilin sonuna olan gözləntilər kimi qəbul edilmişdir.

**Dövlət büdcəsinin gəlirləri.** 2024-cü ilin sonuna dövlət büdcəsinin gəlirlərinin 36388,0 milyon manat təşkil edəcəyi gözlənilir ki, bu da ilkin təsdiq edilmiş proqnoz göstəricisinə nəzərən 6,5 faiz çoxdur. Dövlət büdcəsinin gəlirlərinin 48,8 faizi və ya 17769,0 milyon manatı neft-qaz sektorunun, 51,2 faizi və ya 18619,0 milyon manatı qeyri-neft/qaz sektorunun payına düşür. 2024-cü ilin ilkin proqnoz göstəriciləri ilə müqayisədə neft-qaz sektoru üzrə gəlirlərin 605,0 milyon manat və ya 3,5 faiz, qeyri-neft/qaz sektoru üzrə isə 1610,0 milyon manat və ya 9,5 faiz artması gözlənilir. Bütövlükdə dövlət büdcəsi gəlirlərinin tərkibində qeyri-neft/qaz gəlirlərinin xüsusi çəkisi ilkin proqnoz göstəricisinə nisbətən 1,4 faiz-bənd artaraq 51,2 faiz təşkil edəcəkdir.

Dövlət büdcəsi gəlirlərinin 15270,0 milyon manatı və ya 42,0 faizi vergilər və rüsumlar üzrə daxilolmaların, 6435,0 milyon manatı və ya 17,7 faizi gömrük rüsumları və idxala görə vergi daxilolmalarının, 12781,0 milyon manatı və ya 35,1 faizi Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfertin, 831,0 milyon manatı və ya 2,3 faizi büdcə təşkilatlarının büdcədənkənar gəlirləri üzrə daxilolmaların, 821,0 milyon manatı və ya 2,3 faizi sair gəlirlərin, 250,0 milyon manatı və ya 0,7 faizi isə Azərbaycan Respublikası Mərkəzi Bankının reallaşdırılmış mənfəətinin sərbəst qalığından ayırmanın payına düşür.

Vergi və rüsumlar üzrə daxilolmaların məbləği 15270,0 milyon manat nəzərdə tutulur ki, bu da cari ilin ilkin təsdiq olunmuş göstəricisinə nisbətən 1405,0 milyon manat və ya 10,1 faiz çoxdur. Qeyd olunan vəsaitin 4580,0 milyon manatı və ya 30,0 faizi neft-qaz sektorunun, 10690,0 milyon manatı və ya 70,0 faizi isə qeyri-neft/qaz sektorunun payına düşəcəkdir.

Neft-qaz sektoru üzrə vergi daxilolmalarının 43,7 faizini və ya 2000,0 milyon manatını Azərbaycan Respublikası Dövlət Neft Şirkəti üzrə vergilər, 14,2 faizini və ya 650,0 milyon manatını Azəri-Çıraq-Günəşli layihəsi üzrə hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən podratçı təşkilatların mənfəət vergisi, 42,1 faizini və ya 1930,0 milyon manatını isə Şahdəniz layihəsi üzrə hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən podratçı təşkilatların mənfəət vergisi  təşkil edir.

Yenidən baxılmış 2024-cü il dövlət büdcəsinin gəlirlərinin hesablanması zamanı “Azəri Light” markalı xam neftin bir barelinin orta ixrac qiymətinin 15 ABŞ dolları artırılaraq 75,0 ABŞ dolları müəyyən edilməsi ilə yanaşı, 2023-cü ilin 4-cü rübü və cari ilin yanvar-mart ayları üzrə neftin orta ixrac qiymətinin 87,2 ABŞ dolları təşkil etməsi ilə əlaqədar 2024-cü il üçün təsdiq olunmuş göstəricilərlə müqayisədə daxilolmaların proqnozu Azəri-Çıraq-Günəşli layihəsi üzrə hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən podratçı təşkilatların mənfəət vergisi üzrə 280,0 milyon manat və ya 75,7 faiz, Şahdəniz layihəsi üzrə hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən podratçı təşkilatların mənfəət vergisi üzrə isə 325,0 milyon manat və ya 20,2 faiz artırılmışdır.

Yenidən baxılmış 2024-cü il dövlət büdcəsində vergi orqanlarının xətti ilə qeyri-neft/qaz sektoru üzrə daxilolmalar 10690,0 milyon manata çatdırılır ki, bu da cari il üçün təsdiq olunmuş göstəricilərlə müqayisədə 800,0 milyon manat və ya 8,1 faiz, 2023-cü ilin icra göstəricisi ilə müqayisədə isə 982,1 milyon manat və ya 10,1 faiz çoxdur.

Cari ilin yanvar-aprel ayları üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə təmin edilmiş daxilolmaların proqnozdan 954,3 milyon manat və ya 16,7 faiz, o cümlədən qeyri-neft sektoru üzrə 593,9 milyon manat və ya 15,1 faiz çox olması qeyri-neft sektoru üzrə gəlirlər proqnozunun yenidən baxılmasına zəmin yaratmışdır.

**Qrafik 11. Dövlət büdcəsinin gəlirlərinin ilkin və yenilənmiş proqnozları** *(milyon manat)*




Yenidən baxılmış 2024-cü il dövlət büdcəsinə gömrük rüsumları və idxala görə vergi daxilolmaları 6435,0 milyon manat məbləğinə çatdırılır ki, bu da 2024-cü ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 535,0 milyon manat və ya 9,1 faiz çoxdur. Gömrük daxilolmalarının artırılması 2024-cü il və sonrakı 3 il üçün ölkənin sosial-iqtisadi inkişaf göstəricilərinin yenilənmiş proqnozlarında idxalın həcminin 17,5 milyard ABŞ dollarına çatdırılaraq 1,3 milyard ABŞ dolları və ya 8,7 faiz artımla proqnozlaşdırılması, habelə cari ilin yanvar-aprel ayları üzrə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xətti ilə təmin edilmiş daxilolmaların proqnozdan 131,0 milyon manat və ya 7,1 faiz çox olması ilə bağlıdır.

2024-cü il üzrə yenidən baxılmış dövlət büdcəsində Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfert (12781,0 milyon manat), büdcədənkənar gəlirlər üzrə daxilolmalar (831,0 milyon manat), İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin xətti ilə daxilolmalar (28,0 milyon manat) əvvəlki səviyyədə saxlanılmışdır.

Mövcud daxilolma mənbələrindən əlavə olaraq 2024-cü il dövlət büdcəsində Azərbaycan Respublikası Mərkəzi Bankının reallaşdırılmış mənfəətinin sərbəst qalığından 250,0 milyon manat, “Nəqliyyat vasitələrinin utilizasiyası Fondu”na isə 25,0 milyon manat məbləğində daxilolma proqnozlaşdırılır.

**Dövlət büdcəsinin xərcləri.** 2024-cü il dövlət büdcəsinin yenidən baxılmış xərclərinin 39742,3 milyon manat səviyyəsində olacağı gözlənilir ki, bu da ilkin proqnoz göstəriciyə nisbətən 8,1 faiz çoxdur. Qeyd olunan 2979,3 milyon manat məbləğində xərc artımının maliyyə təminatı 2024-cü il dövlət büdcəsinin gəlirlərinin 2215,0 milyon manat, kəsirinin isə 764,3 milyon manat artırılması hesabına formalaşdırılmışdır. Bununla yanaşı, dövlət büdcəsinin təsdiq olunmuş bəzi xərclərinin optimallaşdırılması hesabına büdcə xərcləri daxilində 851,8 milyon manat məbləğində əlavə maliyyə təminatı yaradılmışdır.

Bütövlükdə yaradılmış 3,8 milyard manat məbləğində maliyyə resurslarının 1085,8 milyon manatının işğaldan azad olunmuş Qarabağ və Şərgi Zəngəzurda yenidənqurma işlərinin aparılmasına yönəldilməklə cari ildə Böyük Qayıdış Proqramı üçün ayrılan dövlət büdcəsinin vəsaitinin 5085,8 milyon manata çatdırılması nəzərdə tutulmuşdur.

Ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, müdafiə və milli təhlükəsizlik, hüquq-mühafizə sahəsində islahatların davam etdirilməsi, ordunun hərbi sursat və maddi-texniki təchizatının müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində müdafiə, təhlükəsizlik və hüquq mühafizə üzrə əsaslı xərclər üçün, o cümlədən ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılması və maddi-texniki təminatın yaxşılaşdırılması üzrə xərclər əlavə olaraq 700,0 milyon manat artırılmışdır.

Bununla yanaşı, 2024-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri 771,1 milyon manat artırılaraq 3254,0 milyon manat məbləğində vəsait nəzərdə tutulmuşdur.

2025-ci ildə dövlət borcuna xidmət xərcləri 2568,9 milyon manat olmaqla xarici dövlət borcu üzrə 1718,8 milyon manat, daxili dövlət borcuna xidmət xərcləri isə 850,1 milyon manat təşkil etməsi gözlənilir.

Ümumilikdə yenidən baxılmış 2024-cü il dövlət büdcəsinin xərclərinin strukturuna daxil olan cari xərclərə ümumi xərclərin 58,10 faizi həcmində və ya 23070,9 milyon manat (təsdiq olunmuş göstəriciyə nisbətən 360,7 milyon manat və ya 1,6 faiz), əsaslı xərclərə ümumi xərclərin 38,7 faizi həcmində və ya 15375,8 milyon manat (təsdiq olunmuş göstəriciyə nisbətən 3295,6 milyon manat və ya 27,3 faiz çox), dövlət borcuna xidmətlə bağlı xərclərə ümumi xərclərin 3,3 faizi həcmində və ya 1295,6 milyon manat (təsdiq olunmuş göstəriciyə nisbətən 677,0 milyon manat və ya 34,3 faiz az) vəsait yönəldiləcəkdir. Müvafiq olaraq dövlət büdcəsinin tərkibində əsaslı xərclərin xüsusi çəkisi 5,8 faiz-bənd artacaq, cari xərclərin xüsusi çəkisi isə 3,7 faiz-bənd, dövlət borcuna xidmətlə bağlı xərclərin xüsusi çəkisi 2,1 faiz-bənd azalacaqdır.

**Qrafik 12. Dövlət büdcəsinin proqnozlaşdırılan xərclərinin ilkin və yenilənmiş parametrləri** *(milyon manat)*




Yenidən baxılmış 2024-cü il dövlət büdcəsinin xərcləri funksional təsnifata uyğun olaraq iqtisadi fəaliyyət (dövlət əsaslı vəsait qoyuluşu, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, bərpası və digər xərclər) xərcləri təsdiq olunmuş 7788,0 milyon manata qarşı 9902,7 milyon manat və ya 2114,8 milyon manat (27,2 faiz), müdafiə və milli təhlükəsizlik xərcləri təsdiq

olunmuş 6421,0 milyon manata qarşı 7126,3 milyon manat və ya 705,3 milyon manat (11,0 faiz), əsas bölmələrə aid edilməyən xidmətlər üzrə xərclər təsdiq olunmuş 1390,3 milyon manata qarşı 1750,2 milyon manat və ya 359,9 milyon manat (25,9 faiz), məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq xərcləri təsdiq olunmuş 2956,7 milyon manata qarşı 3089,8 milyon manat və ya 133,2 milyon manat (4,5 faiz), kənd təsərrüfatı xərcləri təsdiq olunmuş 1102,6 milyon manata qarşı 1202,6 milyon manat və ya 100,0 milyon manat (9,1 faiz), mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərcləri təsdiq olunmuş 574,8 milyon manata qarşı 575,6 milyon manat və ya 0,9 milyon manat (0,1 faiz), təhsil xərcləri təsdiq olunmuş 4549,9 milyon manata qarşı 4550,3 milyon manat və ya 0,4 milyon manat çox, ümumi dövlət xidmətləri (qanunvericilik və icra hakimiyyəti, beynəlxalq münasibətlər, xarici ölkələrə yardımlar, büdcələrarası transfertlər, dövlət borcu) xərcləri təsdiq olunmuş 4822,2 milyon manata qarşı 4542,8 milyon manat və ya 279,4 milyon manat (5,8 faiz), səhiyyə xərcləri təsdiq olunmuş 1871,3 milyon manata qarşı 1866,4 milyon manat və ya 4,9 milyon manat (0,3 faiz), sosial müdafiə və sosial təminat xərcləri təsdiq olunmuş 4542,2 milyon manata qarşı 4391,4 milyon manat və ya 150,8 milyon manat (3,3 faiz) az, mənzil və kommunal təsərrüfatı xərcləri və ətraf mühitin mühafizəsi xərcləri isə təsdiq olunmuş məbləğdə proqnozlaşdırılır.

**Qrafik 14. 2024-cü ilin dövlət büdcəsinin proqnozlaşdırılan xərclərinin funksional təsnifatın bölmələri üzrə ilkin və yenilənmiş göstəriciləri** *(milyon manat)*




**Dövlət borcu.** 2025-ci ilin 01 yanvar tarixinə Azərbaycan Respublikasının xarici dövlət borcunun 5214,4 milyon ABŞ dolları, daxili dövlət borcunun isə 19310,8 milyon manat olmaqla ümumi dövlət borcunun 28175,2 milyon manat təşkil edəcəyi gözlənilir.

2025-ci ilin 01 yanvar tarixinə xarici dövlət borcunun 49,1 faizinin 5 ilədək, 44,7 faizinin 5-10 il ərzində, 6,2 faizinin isə 10 ildən artıq müddətə kreditorlara ödənilməsi gözlənilir. Xarici

dövlət borcu üzrə yeni cəlb olunacaq borc öhdəliklərinin 10 ilədək müddətə təqribən müvafiq istinad dərəcəsi üstəgəl 0,8 faiz dərəcəsi ilə, 10-20 illik müvafiq istinad dərəcəsi üstəgəl 1,0 faiz dərəcəsi ilə, 20 ildən artıq müddətə isə müvafiq istinad dərəcəsi üstəgəl 1,2 faiz dərəcəsi ilə cəlb olunması nəzərdə tutulur.

2025-ci ilin 01 yanvar tarixinə daxili dövlət borcunun 53,0 faizini daxili maliyyə bazarlarında emissiya olunmuş dövlət istiqrazları təşkil edəcəkdir. İlin sonuna dövriyyədə olan dövlət istiqrazlarının 19,5 faizi 1 illik, 72,6 faizi 2-3 illik, 7,9 faizi isə 5-7 illik istiqrazların payına düşməsi proqnozlaşdırılır.

**Dövlət büdcəsinin kəsiri.** Yenidən baxılma ilə 2024-cü ilin dövlət büdcəsinin kəsiri 764,3 milyon manat artırılaraq 3354,3 milyon manat məbləğinə çatdırılmışdır. Kəsirin artımının maliyyələşdirilməsi daxili borclanmadan cəlb olunan vəsait, vahid xəzinə hesabının sərbəst qalığı və Məqsədli Büdcə Fondlarının vəsaitinin qalığı hesabına təmin ediləcəkdir. Kəsirin cari ilin sonuna gözlənilən ümumi daxili məhsula nisbəti 2,8 faiz həcmində olacaqdır.

**İcmal büdcə.** 2024-cü il üzrə yenidən baxılmış icmal büdcənin gəlirləri 43515,0 milyon manat proqnozlaşdırılır ki, bu da ilkin təsdiq olunmuş göstəriciyə nisbətən 4517,5 milyon manat və ya 11,6 faiz çoxdur.

Cari ilin icmal büdcəsinin xərcləri 45626,8 milyon manat proqnozlaşdırılır ki, bu da ilkin təsdiq olunmuş göstəriciyə nisbətən 3250,6 milyon manat və ya 7,7 faiz, 2023-cü ilin icra göstəricisinə nisbətən isə 5278,7 milyon manat və ya 13,1 faiz çoxdur.

İcmal büdcə 2111,8 milyon manat kəsirlə proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş kəsirə nisbətən 1266,9 milyon manat və ya 37,5 faiz azdır.

İcmal büdcənin tərkibinə daxil olan Azərbaycan Respublikası Dövlət Neft Fondunun büdcəsinin gəlirləri ilkin təsdiq olunmuş göstərici ilə müqayisədə 2036,0 milyon manat və ya 16,9 faiz artaraq 14109,2 milyon manat məbləğində olacağı gözlənilir.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun büdcəsinin xərcləri 12904,9 milyon manat təşkil edəcəkdir ki, bu da cari ilin ilkin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 4,7 milyon manat çoxdur.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri və xərcləri bərabər olaraq 30,0 milyon manat (0,4 faiz) artımla 6949,9 milyon manat təşkil edəcəkdir.

İcbari Tibbi Sığorta Fondunun gəlir və xərcləri bərabər olaraq 38,9 milyon manat (1,4 faiz) artımla 2850,3 milyon manat təşkil edəcəkdir.

İşsizlikdən Sığorta Fondunun gəlirləri və xərcləri təsdiq olunmuş məbləğdə, yəni 238,0 milyon manat proqnozlaşdırılır.

Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlir və xərcləri bərabər səviyyədə, 22,9 milyon manat (4,4 faiz) artımla 539,3 milyon manat təşkil edəcəkdir.

Eyni zamanda ölkə daxilində istehsal edilən və qiymətləri tənzimlənən yanacağın daşıyıcılar tərəfindən Naxçıvan Muxtar Respublikasına çatdırılması məqsədilə çəkilən əlavə xərclərin qarşılanması üçün nəzərdə tutulmuş 6,8 milyon manat vəsait Muxtar Respublikanın büdcəsindən çıxarılaraq dövlət büdcəsinin mərkəzləşdirilmiş xərcləri vasitəsilə təmin olunacaqdır. Bu səbəbdən dövlət büdcəsindən Muxtar Respublikanın büdcəsinə verilən dotasiyanın məbləği 6,8 milyon manat azaldılmışdır.

2024-cü ilin dövlət büdcəsinə yenidən baxılma nəticəsində dövlət büdcəsinin gəlir və xərclərinin ilin sonuna gözlənilən icra göstəriciləri nəzərə alınaraq icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbəti, eləcə də dövlət borcunun ÜDM-ə nisbəti müəyyən edilmiş hədlər daxilində təmin olunacaqdır.

## 5. Xam neftin qiymətinin dəyişməsinin icmal büdcəyə təsirlərinə dair həssaslıq təhlili

Azərbaycan Respublikasının icmal və dövlət büdcəsinin parametrləri bir sıra fərziyyələrə və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təqdim etdiyi ortamüddətli dövr üçün sosial-iqtisadi inkişaf göstəricilərinə, o cümlədən xam neftin qiymətinə əsaslanaraq proqnozlaşdırılır. Bu baxımdan, hal-hazırda dünyada gedən geosiyasi proseslər və iqtisadi trendlər fonunda enerji daşıyıcılarının qiymətinin dəyişməsinin icmal və dövlət büdcəsinə mümkün təsirlərinin təhlili xüsusi əhəmiyyət kəsb edir.

2024-cü ilin dövlət büdcəsinə yenidən baxılma ilə dövlət büdcəsinin gəlirləri 36388,0 milyon manat, o cümlədən **dövlət büdcəsinin neft-qaz gəlirləri** 17769,0 milyon manat təsdiq edilmişdir.

2024-cü il üzrə Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulan transfertin tam məbləğdə köçürülməsi şərtilə və cari ilin altı aylıq faktiki büdcə gəlirləri nəzərə alınmaqla 2024-cü ildə xam neftin 1 barelinin müxtəlif qiymət ssenarilərində dövlət büdcəsinin neft-qaz gəlirlərinin dəyişməsi aşağıdakı qrafikdə göstərilmişdir (Qrafik 15).

**Qrafik 15. Dövlət büdcəsinin neft-qaz gəlirlərinin xam neftin müxtəlif qiymət ssenarilərində dəyişməsi** *(milyon manat)*




Aparılmış hesablamalara əsasən, Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulan transfertin tam məbləğdə köçürülməsi şərtilə cari ilin altı aylıq faktiki daxilolmaları nəzərə alınmaqla, xam neftin bir barelinin qiymətinin hər 10 ABŞ dolları dəyişməsi **dövlət büdcəsinin neft-qaz gəlirlərinin** orta hesabla təqribən 100 milyon manat artması və ya azalmasına səbəb olur.

2024-cü ilin yenidən baxılan büdcəsində icmal büdcənin gəlirləri 43,5 milyard manat, o cümlədən icmal büdcənin neft-qaz gəlirləri 19,1 milyard manat proqnozlaşdırılır. Qrafik 16-dan göründüyü kimi, cari ilin altı aylıq faktiki daxilolmaları nəzərə alınmaqla, xam neftin qiymətinin hər 10 ABŞ dolları dəyişməsi icmal büdcənin gəlirləri təqribən 0,8 milyard manat artması və ya azalmasına səbəb olur.

**Qrafik 16. İcmal büdcənin gəlirlərinin müxtəlif neft qiyməti ssenarilərində dəyişməsi** *(milyard manat)*




Belə ki, icmal büdcənin gəlirləri 65,0 ABŞ dolları ssenarisində 0,8 milyard manat *(Dövlət Neft Fondunun gəlirlərinin 0.7 milyard manat və dövlət büdcəsinin neft-qaz gəlirlərinin 0,1 milyard manat azalması hesabına)* az, 85,0 ABŞ dolları ssenarisində isə 0,8 milyard manat *(Dövlət Neft Fondunun gəlirlərinin 0,7 milyard manat və dövlət büdcəsinin neft-qaz gəlirlərinin 0,1 milyard manat artması hesabına)* çox olacağı gözlənilir.

Qrafik 17-dən göründüyü kimi, DNF-dən dövlət büdcəsinə nəzərdə tutulan transfertin tam şəkildə köçürülməsi və cari ilin altı aylıq faktiki daxilolmaları nəzərə alınmaqla, 2024-cü ildə xam neftin bir barelinin qiymətinin 65,0 ABŞ dolları ssenarisində icmal büdcədə 2,9 milyard manat kəsir, 85,0 ABŞ dolları ssenarisində isə 1,3 milyard manat kəsir olacağı gözlənilir.

**Qrafik 17. İcmal büdcənin artıqlığı/kəsirliliyinin xam neftin müxtəlif qiymət ssenarilərində dəyişməsi (milyard manatla)**




Xam neftin qiymətinin hər 10 ABŞ dolları dəyişməsinin Fondun aktivlərinə təsirləri aşağıdakı qrafikdə təsvir olunmuşdur.

2024-cü ilin altı aylıq faktiki daxilolmaları nəzərə alınmaqla xam neftin bir barelinin müxtəlif qiymət ssenarilərində 01 yanvar 2025-ci il tarixinə Dövlət Neft Fondunun aktivlərinin aşağıdakı qrafikdə göstərilmişdir.

**Qrafik 18. Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərinin müxtəlif neft qiyməti ssenarilərində dəyişməsi** *(milyard ABŞ dolları)*




Qrafik 18-dən göründüyü kimi, xam neftin qiymətinin hər 10 ABŞ dolları dəyişməsi 01 yanvar 2025-ci il tarixinə Dövlət Neft Fondunun aktivlərinin təqribən 0,4 milyard ABŞ dolları artması və ya azalmasına səbəb olur.

# ƏLAVƏLƏR

1. Azərbaycan Respublikasının dövlət büdcəsinin 2023-2024-cü illərin birinci yarısı üzrə icra göstəriciləri

2. Azərbaycan Respublikasının icmal büdcəsinin 2023-2024-cü illərin birinci yarısı üzrə göstəriciləri

3. Azərbaycan Respublikasının dövlət büdcəsi gəlirlərinin 2023-2024-cü illərin birinci yarısı üzrə icrasına dair məlumat

4. Azərbaycan Respublikasının dövlət büdcəsin xərclərinin 2023-2024-cü illərin birinci yarısı üzrə icrasına dair məlumat (büdcə xərclərinin funksional təsnifatı üzrə)

5. Azərbaycan Respublikasının dövlət büdcəsi xərclərinin 2023-2024-cü illərin birinci yarısı üzrə icrası barədə məlumat (büdcə xərclərinin iqtisadi təsnifatı üzrə)

6. Azərbaycan Respublikasının icmal büdcəsinin 2023-2024-cü illər üzrə göstəriciləri

7. 2023-2024-cü illər üzrə dövlət büdcəsinin göstəriciləri

8. Azərbaycan Respublikasının 2024-cü il üzrə dövlət büdcəsi gəlirlərinin ilkin təsdiq olunmuş və yenidən baxılmış göstəriciləri (vergi və qeyri-vergi gəlirləri üzrə)

9. Azərbaycan Respublikasının 2024-cü il üzrə dövlət büdcəsi gəlirlərinin ilkin təsdiq olunmuş və yenidən baxılmış göstəriciləri (tədiyə növləri üzrə)

10. 2023-2024-cü illər üzrə dövlət büdcəsinin xərclərinin iqtisadi təsnifat üzrə bölgüsü

11. Ortamüddətli xərclər çərçivəsi, proqram və nəticəəsaslı büdcə mexanizminin tətbiq olunduğu büdcə xərclərinin funksional təsnifatının "Təhsil", "Kənd təsərrüfatı" və "Ətraf mühitin mühafizəsi" bölmələrinin 2024-cü il üçün təsdiq olunmuş və yenidən baxılmış büdcə xərclərinin proqramlar üzrə bölgüsü